**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.2.97**

**ZEYNƏB QULİYEVA**

# NAXÇIVANIN DƏMİR DÖVRÜ MƏDƏNİYYƏTİNİN QONŞU REGİONLARLA ƏLAQƏSİ (yeni tapıntılar əsasında)

*Qafqaz arxeologiyasının aktual məsələlərindən biri Dəmir dövründə regionlararası əlaqənin öyrənilməsi ilə bağlıdır. Coğrafi baxımdan bu regionun cənub keçidini təşkil edən Azərbaycan, o cümlədən onun Naxçıvan diyarı Cənubi Qafqazın Yaxın Şərqlə əlaqələrində mühüm rol oynamışdır. Təqdim olunan məqalədə bu əlaqələr Naxçıvanın Dəmir dövrü abidələrindən tapılan yeni arxeoloji materiallar əsasında araşdırılmışdır. Tədqiqatın məqsədi Naxçıvanın Dəmir dövrü mədəniyyətinin qonşu regionlarla əlaqəsinin başlıca istiqamətlərini müəyyənləşdirmək, həmçinin yeni arxeoloji materialları elmi dövriyyəyə daxil etməkdən ibarətdir. Bunun üçün əsasən 2024-cü ildə I Xələc yaşayış yerindən aşkar edilən artefaktlar, eləcə də II Xələc yaşayış yerinin, Yurdçu nekropolunun, I Dəmirçi nekropolunun keramika məmulatının bir qismi tədqiqata cəlb edilmişdir. Araşdırmalar tipoloji müqayisələr, C14 analizlərin nəticələri və analitik təhlillərə və yeni tapıntıların qrafik təsvirlərinə əsasən aparılmışdır. Aparılan tədqiqatlara əsasən Naxçıvanın Dəmir dövrü mədəniyyətində Ağrı vadisi, Urmiya hövzəsi və Şərqi Anadolu abidələri ilə əlaqəni əks etdirən 3 istiqamət müəyyənləşdirilmişdir. Araşdırmaların yekun nəticəsi göstərir ki, Dəmir dövrünün erkən mərhələsində Naxçıvan regionun mədəni mərkəzlərindən biri olmuş və Cənubi Qafqazın Yaxın Şərqlə əlaqələrində mühüm əhəmiyyət daşımışdır.*

**Açar sözlər:** *Azərbaycan arxeologiyası, Naxçıvan, Dəmir dövrü, I Xələc, Yurdçu nekropolu, Urmiya hövzəsi, Ağrı vadisi.*

**Giriş.** Dəmir dövrü yazıyaqədərki dövrlə yazılı tarix arasında keçid mərhələsinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Tarixin bu mərhələsi zaman oxunun eramızdan əvvəlki və sonrakı dövrlərində formalaşan siyasi birliklər, dövlətlərarası münasibətlər, hərbi yürüşlərlə müşayiət olunduğundan regionlararası əlaqələrin səviyyəsini əks etdirən çoxsaylı dəyərli abidələrlə də təmsil olunmuşdur. Xüsusilə Cənubi Qafqaz-Yaxın Şərq əlaqələrinin hərbi, siyasi-mədəni müstəvidə araşdırılması baxımından bu dövrün arxeoloji abidələri zəngin faktlara sahibdir.

Azərbaycanın yerləşdiyi coğrafiya o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsindəki arxeoloji abidələr tarixin ən hərəkətli mərhələsi olan Dəmir dövründə Cənubi Qafqaz-Yaxın Şərq əlaqələrinin izlərini daşıyan müxtəlif maddi-mədəniyyət nümunələri ilə tədqiqatçıların diqqətini çəkmişdir. Bu dövrə aid tapıntılar Naxçıvan ərazisindəki Zeyvə, Qazxan, Qarabulaq, I Dəmirçi, II Dəmirçi, Çapacaq, Bəyəhməd, Sarıdərə, Paya dərəsi kimi nekropollar, I və II Kültəpə, Plovdağ, Meydantəpə, Oğlanqala, Sədərək yaşayış yerlərində müxtəlif dərəcələrdə əks olunmuşdur. Abidələr haqqında müxtəlif tədqiqat əsərlərində məlumat verilmiş [1, 2002; 2, 2024], yaşayış yerləri, nekropollar, qala tipli məskənlər, xüsusi ilə keramika məmulatının tipoloji olaraq ümumi şəkildə müqayisəsi aparılmışdır. Lakin bu mədəniyyətin qonşu regionlarla əlaqələri və əsas istiqamətləri ayrıca olaraq araşdırılmamışdır.

Təqdim olunan məqalədə Dəmir dövründə Naxçıvanın qonşu regionlarla mədəni-iqtisadi əlaqələrinin məhz yeni tapıntılar müstəvisində araşdırılması qarşıya başlıca məqsəd olaraq qoyulmuşdur. Son dövrlərdə I və II Dəmirçi nekropollarından, Sədərək yaşayış yerindən əldə edilən yerüstü arxeoloji materiallar, həmçinin Paya dərəsi nekropolundan, xüsusilə I Xələc yaşayış yerindən 2024-cü ildə aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilən yeni tapıntılar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu araşdırmada yeni arxeoloji materialların elmi dövriyyəyə daxil edilməsi də başlıca vəzifələr sırasına daxildir.

**Material və metod.** Yeni tapıntıların ilkin araşdırılması Naxçıvan ərazisində Dəmir dövrü mədəniyyətinin özünəməxsus cəhətlərə malik olduğunu, eyni zamanda Azərbaycanın digər bölgələri, Urmiya hövzəsi, Şərqi Anadolu kimi yaxın regionların sinxron mədəniyyətləri ilə oxşar əlamətlərə də sahib olduğunu göstərir. Bu xüsusiyyətlərin müəyyənləşdirilməsi üçün aparıcı tədqiqat subyekti olaraq I Xələc yaşayış yerinin III təbəqəsinin Dəmir dövrü tapıntıları seçilmişdir. Lakin qonşu regionlarla ortaq elementlər daşıyan Yurdçu nekropolunun, Dəmirçi nekropollarının bəzi materiallarına da zaman-zaman müraciət edilmişdir. Yeni materialların tədqiqi 2 istiqamətə yönəlmişdir:

- yeni tapıntılarda Naxçıvanın Dəmir dövrü mədəniyyətinin ümumi mənzərəsini yarada bilən özünəməxsus xüsusiyyətlərin müəyyənləşdirilməsi;
- regionlararası əlaqənin ortaq elementlərinin müəyyənləşdirilməsi.

Birinci istiqamətdə aparılan araşdırmalar Naxçıvanın Dəmir dövrü mədəniyyətinin özünəməxsus elementlərinin ortaya çıxarılmasına hədəflənmişdir. Arpaçay vadisində Dəmir dövründə yaşamın uzun müddətli və mərhələli olduğunu göstərir. Bunu I Xələc yaşayış yerində Dəmir dövrünə aid mədəni təbəqənin digər dövrlərə aid təbəqələrlə müqayisədə daha qalın olması və çoxsaylı artefaktlarda izləmək olar. Bu təbəqənin diqqət çəkən digər xüsusiyyəti eyni dövrə aid yaşayış məskəni və dəfn elementlərinin bir arada ortaya çıxmasıdır. Bu baxımdan Paya dərəsi, I və II Dəmirçi nekropollarından, Plovdağ nekropollarından, eyni zamanda Sədərək yaşayış yerindən, Oğlanqala abidəsindən fərqlənir. Qeyd edilən abidələr adlarından da göründüyü kimi, ya qəbir abidəsi, ya da yaşayış yeri kimi tanınmışdır. I Xələcin III təbəqəsində isə həm düzbucaqlı tikili qalığı, həm də ondan az məsafə aralıda – qərbdə sal daşlardan ibarət qəbirin qalığı aşkar olunmuşdur [4, şəkil 3].

Buradakı daş qutu qəbirin sinxronları ilə qarşılaşdırılması Naxçıvan ərazisində Dəmir dövründə mövcud olmuş dəfn adətində 2 qəbir tipindən istifadə edildiyini göstərir. I Xələcdəki qəbir müxtəlif ölçülü sal daşlardan qurulmuş və içərisinə gil suvaq çəkilmişdir, üzərinə də fərqli ölçüdə daşlar qoyulmuşdur. Plovdağ nekropolundan [15], Paya dərəsindən aşkar olunan qəbirlər iri lövhəşəkilli yastı daşlarla çevrələnmişdir [2, şəkil 1]. Daha səliqəli düzülmüş və suvanma əlamətlərinə rastlanmamışdır. Bu qəbir tiplərindən hansının daha əvvələ aid olduğunu təyin etmək ayrıca tədqiqat tələb edir. Lakin hər iki tip qəbirin içərisində və ətrafında aşkar olunan keramika Erkən Dəmir dövrü mədəniyyətini əks etdirdiyindən, onların eyni dövrdə istifadə edildiyini söyləmək olar.

İkinci istiqamətdə aparılan tədqiqatlar qonşu regionlarla oxşar xüsusiyyətlərin müəyyənləşdirilməsinə yönəlmişdir**.** Bu məqsədlə I Xələc yaşayış yerində 2024-cü ildə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən keramika fraqmentləri əsasında 30-adək qabın tipoloji quruluşu müəyyənləşdirilmişdir. Onlar içərisində kasa tipli nümunələr üstünlük təşkil edir (şəkil 1).




**Şəkil 1.** Boz-qara rəngli kasa tipli qablar (I Xələc-2024).

Onlar hazırlanma texnologiyasına görə 3 qrupa ayrılır. Birinci qrupa aid olanlar boz-qara rəngli olub, tərkibi müxtəlif ölçüdə qum tərkiblidir. Səthi hamarlanmış belə qabların bir qisminin ağzı köbəli, bəzisi kiçik qulpludur (şəkil 1, 1-3). Yuvarlaq oturacaqlı bəzi nümunələrdə xaricdən kannelyur ornament izlənilir (şəkil 1, 4). İkinci qrupa aid olanlar boz-qəhvəyi rəngli, qalın divarlı və nahamar olmaları ilə diqqət çəkir. Onlardan bəzisi çərtmə naxışlı yaxud dalğavarı və batıq paralel xətlərlə naxışlanmışdır [5, s. 82-83]. Bir nümunə üzərində rudimentar qulpa rast gəlinmişdir. Üçüncü qrupa aid olanlar qara rəngli, parlaq cilalıdır. İncə divarlı olan belə nümunələr dayaz seyinlər və 1 ədəd hər iki tərəfi açıq olan qab nümunəsində az saydadır. Onlar ilk iki qrupla müqayisədə daha diqqətli və səliqəli hazırlanmışdır. Keramika qruplarında izlənilən texnoloji və funksional dəyişikliklər burada Dəmir dövrünün müxtəlif mərhələlərinin olduğundan xəbər verir və daha geniş araşdırma tələb edir. Hələliksə biz yuxarıda qeyd etdiyimiz başlıca məqsəd çərçivəsindən kənara çıxmamaq üçün sözügedən arxeoloji materiallarda qonşu regionlarla əlaqəni əks etdirən elementlərə diqqət çəkmək istəyirik.

### Arxeoloji materiallarda regionlararası ortaq elementlər

**Memarlıq quruluşunda.** Belə elementlər, ilk növbədə, tikinti quruluşunda özünü göstərir. I Xələcin Erkən Dəmir dövrü təbəqəsindən aşkar olunan divar qalığı iki cərgədən ibarət çay daşlarının hamar tərəflərinin tikilinin içərisinə doğru qoyulması yolu ilə hörülmüşdür. Bu baxımdan Urmiya gölünün cənub-qərbindəki Dingə təpə yaşayış yerinin Son Tunc dövrünə aid edilən düzbucaqlı evlərinin tikinti texnikası ilə analogiya yaradır [11, fig. 2].

**Qəbirlərin quruluşunda.** Azərbaycanın digər bölgələrindəki sinxronları ilə bəzi ortaq elementlərə rast gəlinir. I Xələcdən 2024-cü ildə aşkar olunan skeletsiz qəbir müxtəlif ölçülü sal daşlarla əhatələnməsi və yalnız qablarla təmsil olunması baxımından Morqan tərəfindən Lənkəran ərazisində aşkar olunmuş Son Tunc Erkən Dəmir dövrünə aid nekropolun düzbucaqlı formaya malik daş qutu qəbirləri ilə analogiya yaradır [9, fig. 11: Tombeau No. 109]. Plovdağdan aşkar olunan daş qutu qəbirlərdən üçünün yerüstü hissəsinə düzbucaqlı formada daş döşənmiş, divarları daş plitələrdən hörülmüş, kameraları iri sal daşlarla örtülmüşdür [15, c. 56]. I Xələcin daş qutu qəbrində Plovdağ qutu qəbirlərindən fərqli olaraq, keramika skeletin baş tərəfində deyil, qəbirin şimal-şərq və cənub-qərb hissələrində qoyulmuşdur.

**Keramikada.** Naxçıvanın Erkən Dəmir dövrü keramikasının bir qismində Xocalı-Gədəbəy mədəniyyəti elementlərinə rast gəlinir. Arpaçay vadisində belə nümunələr I Dəmirçi nekropolundan, Qazxan nekropolundan tapılan qablarda rudimentar çıxıntılarla təmsil olunmuşdur. I Xələcdə də bu tip bir nümunə qeydə alınmışdır. Lakin belə nümunələr azdır. Çölməklər bu dövrün xarakterik qablarındandır. I Xələcdən aşkar olunan nümunə boz rəngli, qabarıq olan çiyin və gövdə hissəsində buğda şəkilli çərtmələrlə çevrələnmişdir (şəkil 2, 2). Buğda şəkilli naxışlara buradan aşkar olunan küpə (şəkil 1, 3), I Dəmirçi nekropolundan aşkar olunan kiçik çölmək [3, şəkil 1, 2] oxşardır. Forma baxımından Plovdağ daş qutu qəbir inventarları ilə də yaxındır [15, рис. 1].

Urmiya hövzəsi ilə əlaqələr baxımından kiçik ölçülü küpələr daha çox diqqət çəkir (şəkil 2, 1-4).

I Xələcdən üzə çıxarılan (şəkil 1, 1) kasa ağzı köbəli olması və xaricə əyilməsi baxımından Şimal-qərbi İranın – Yanıqtəpənin Gec Dəmir dövrü qabları ilə analogiya yaradır [10, fig. 9, 5, fig. 21, 9, 5].

Yurdçudan tapılan kiçik həcmli küpə də bu baxımdan diqqətəlayiqdir (şəkil 2, 3). Onun bənzərləri II Dəmirçi nekropolu, Urmiya hövzəsində Dingətəpə abidəsinin Son Tunc-Erkən Dəmir dövrü [11, Fig. 27, b, f] və Plovdağın torpaq qəbirlərində qeydə alınan nümunələrlə [15, рис. 2] oxşardır. Lakin Dingətəpə karinasiyalı çölməkləri, ikihissəli qabları onu fərqləndirir. Qərbi Azərbaycanın Artik nekropolundan tapılan ikiqulplu küpənin [8, fig. 13, F] yaxın bənzəri II Dəmirçi nek-

ropolunda qeydə alınmışdır. Konusvari formalı kasalar (şəkil 1, 2, 4) Qərbi Azərbaycandakı abidələrdən Artik nekropolunun materialları ilə oxşar olsa da [12, fig. 13, 1, J] qulplu olması ilə fərqlənir. Artik nekropolunun küpə, çölmək və kasaları I Dəmirçi nekropolunun qabları ilə daha çox oxşarlıq yaradır [yenə orada, fig. 13, C, L, M]. Buradan aşkar olunmuş konusvari kasaların 3 tipi-silindrik – konik, konusvarı və yuvarlaq oturacaqlı dayaz qablar Urmiya hövzəsindəki Larican, Dingətəpə və Qurdlartəpə abidələrindən məlumdur [12, fig. 10; 11; 12].




**Şəkil 2.** Kiçik ölçülü küpələr (1, 4: I Xələc-2024, 2: II Xələc-2024, 3: Yurdçu kurqanı-2022 – yerüstü tapıntı).

Şərqi Anadolu ilə əlaqələrin bəzi elementləri I Xələcdən aşkar olunan arxeoloji materiallarda izlənilir. Çölmək tipli qablar bu baxımdan diqqətəlayiqdir (şəkil 2).

I Xələcin III təbəqəsində qeydə alınan çölmək 2 cərgə dırnaq şəkilli çərtmələr cərgəsi ilə çevrələnmişdir (şəkil 3). Bu qab tipoloji olaraq Ərzurum Erkən Dəmir dövrünə aid Güzelova qrupu qabları ilə oxşarlıq yaradır [7, fig. 8, 1024]. Lakin bizim nümunə çərtmə naxışları ilə fərqlənir və bu baxımdan I Kültəpənin Erkən Dəmir dövrü təbəqəsinin qabları ilə daha yaxındır. I Kültəpə keramikasında bu tip dırnaq şəkilli çərtmələr I Xələc nümunəsində olduğu kimi, bir-birindən paralel basma xətlərlə ayrılan 2 cərgəli şəkildə qabın çiyin hissəsini çevrələyir [13, табл. XXXIII, 5]. Belə oxşarlıq buğdaşəkilli çərtmə ornamentlərdə də izlənilir. Bu tip ornamentlər I Xələc (şəkil 1, 3), I Dəmirçi nekropolu [3, şəkil 1, 2] və I Kültəpənin Erkən Dəmir dövrü materiallarının [13, табл. XXXIII, 4] oxşar əlamətlərindəndir. Bu abidələr arasındakı ortaq elementlər qabların ağız kənarında tətbiq olunmuş qulpşəkilli çıxıntılarla da təsdiqlənir (şəkil 3, 2).



**Şəkil 3.** Dəmir dövrünə aid çölmək (I Xələc-2024).

**Diskussiya.** Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyətinin 2024-cü ildə I Xələc yaşayış yerinin III təbəqəsindən, eləcə də Yurdçu, I-II Dəmirçi nekropollarından əldə edilmiş yeni tapıntılar müstəvisində araşdırılması zamanı mədəni-iqtisadi əlaqələrin 3 istiqaməti diqqət çəkir. Birinci istiqamət Urmiya hövzəsi ilə əlaqələri əks etdirir. Keramika və bəzək nümunələrində oxşarlıq izlənilir. Dingətəpə, Həsənli, Yanıqtəpənin Erkən Dəmir dövrü materialları ilə ortaq xüsusiyyətlər xüsusilə diqqət çəkir. İkinci istiqamət Şərqi Anadolu ilə əlaqələri göstərir. Urartu dövründə siyasi və mədəni əlaqələrin olması daha çox diqqət çəkir. Urartu memarlığı Naxçıvanın bəzi qalalarında və istehkamlarında izlənir. Bu əlaqələr Dəmir dövründə Naxçıvanda tikilmiş müdafiə tikililərində özünü göstərir. I Xələc daş qutu qəbiri, dəfn elementlərində izlənilən ortaq elementlər Dəmir dövründə bu regionlar arasındakı əlaqənin artdığını təsdiq edir. Üçüncü istiqamət Cənubi Qafqazın digər regionları ilə əlaqələrdən xəbər verir. Ağrı vadisindəki abidələrdə oxşarlıq var. Artik nekropolundan tapılan qablar tipoloji baxımdan I Xələc, I Dəmirçi nekropolunun qabları ilə analogiya yaradır. Dağıstanın Qayakənt abidəsindən tapılan novşəkilli ornamentli qab fraqmenti II Xələcdən tapılan nümunə ilə oxşardır. Gürcüstanın Kolxida mədəniyyəti ilə də müəyyən əlaqələrin olduğu Lçasen-Tsovinar abidəsinin materiallarında az miqdarda da olsa izlənilir. Bu oxşarlıqlar bu regionlar arasında ticarət-mübadilə və mədəni əlaqələrin varlığından xəbər verirdi.

**Nəticə.** Araşdırmalar göstərir ki, Erkən Dəmir dövründə Naxçıvan regionda mühüm mədəni mərkəzlərdən olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti burada yayılmış, eyni zamanda lokal bir mədəniyyət də formalaşmışdır. Urmiya, Şərqi Anadolu ilə əlaqələr iqtisadi və mədəni zəmində həyata keçirilmişdir. Naxçıvanın coğrafi mövqeyi, təbii resurslarla zəngin olması bu əlaqələr üçün başlıca stimul olmuşdur.

## ƏDƏBİYYAT


1. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
2. Baxşəliyev V., Quliyeva Z. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti ilə bağlı yeni tapıntılar: Paya dərəsi nekropolu // Şərqin qapısı – qədim diyar (14 mart 2024-cü ildə keçirilmiş konfransın materialları). Naxçıvan: Əcəmi, 2024, s. 91-100.
3. Quliyeva Z. Dəmirçi nekropolunun Erkən Dəmir dövrü keramikası // Azərbaycan arxeologiyası, Bakı, 2015, c. 18, № 1, s. 61-67.
4. Quliyeva Z. I Xələc yaşayış yerinin Erkən Dəmir dövrü təbəqəsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər, 2024, № 2, s. 107-113.

5. Quliyeva Z., Əliyev S., Tağıyev Ə., İsmayılova A., Rzayeva R., Abbasov H., Əliyeva N., Zalova Ş. Xələc abidələrində 2024-cü ildə aparılmış qazıntıların hesabatı. AMEA Naxçıvan Bölməsinin Elmi arxivi, 2024, 102 s.
6. Belli O. Van Bölgesinde Bir Erken Demir Çağ Mezarlığı: Ernis-Evditepe / Türk arkeolojisi ve İstanbul Universitesi (1932-1999). Ankara, 2000, s. 175-180.
7. İşıklı M., Erdem U.A.. A group of Early Iron Age pottery from the Erzurum Region // Archaeologische mitteilungen aus Iran und Turan, 2009, Band 41, pp. 249-268.
8. Badalyan R.A., Smith T., Lindsay L., Avetisyan P. Village, Fortress, and Town in Bronze and Iron Age Southern Caucasia: A Preliminary Report on the 2003-2006 Investigations of Project ArAGATS on the Tsaghkahovit Plain // Archaeological Communications from Iran and Turan, 2008, No. 40 (1), pp. 45-105.
9. Casanova M., Lorre C., Haze M. The Necropolises of Azerbaijan during the Bronze and Iron Ages in the Lenkoran and the Lerik Areas (NABIALLA): A New French-Azerbaijanese Joint Project // Proseedings of the 8th International Congress on the Archaeology of the Ancient Near East, 30 April-4 May 2012, University of Warsaw. V. 2, Wiesbaden, 2014, pp. 33-48.
10. Summers G.D., Burney Ch.A. Late Iron Age Pottery From Northwestern Iran: The Evidence from Yanik Tepe / Anatolian Iron Ages 7, The Proceedings of the Seventh Anatolian Iron Ages Colloquium Held at Edirne, 19-24 April 2010 / Edited by A.Çilingiroğlu and A.Sagona. Peeters-Leuven-Paris-Walpole: MA, 2012, pp. 269-316.
11. Rubinson K.S. A Mid-Second Millennium Tomb at Dinkha Tepe // American Journal of Archaeology, v. 95, No. 3 (Jul., 1991), pp. 373-394.
12. Karimikiya A., Tahmasebi F., Rezaloo R.,1, Almamedov Kh. et al. Explanation and Configuration of South Caucasus and Azerbaijan (NW Iran) Cultures during the Bronze and Iron Ages // Iranian Journal of Archaeological Studies, 2024, v. 14, No.1, pp. 51-62.
13. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм, 1982, 316 с.
14. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур (эпоха Энеолита и Бронзы) / Ред. А.А.Иессен. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1959, 138 с.
15. Ибрагимли Б. О погребальных памятниках Нахчывана эпохи Поздней Бронзы и Раннего Железа // Археология Азербайджана, 2015, т. 18, № 1, с. 47-60.

***AMEA Naxçıvan Bölməsi,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: zeynebguliyeva@outlook.com***

**Zeyneb Guliyeva**

## RELATIONS OF THE IRON AGE CULTURE OF NAKHCHIVAN WITH NEIGHBORING REGIONS
### (based on new finds)

One of the pressing issues of Caucasian archeology is the study of interregional relations in the Iron Age. Geographically, Azerbaijan, including its Nakhchivan region, which forms the southern gate of this region, played an important role in the relations of the South Caucasus with the Middle East. In the presented article, these relations are studied based on new archaeological materials discovered in the Iron Age monuments of Nakhchivan. The aim of the study is to determine the main directions of the connection of the Iron Age culture of Nakhchivan with neighboring regions, as well as to introduce new archaeological materials into scientific circulation. For this purpose,

artifacts discovered mainly in 2024 from the settlement of I Khalaj, as well as some ceramics from the settlement of II Khalaj, the necropolis of Yurdchu and the necropolis of Demirchi I were involved in the study. The research was conducted based on typological comparisons, C14 analysis results, analytics, and graphic descriptions of new finds. Based on the conducted research, 3 trends in the Iron Age culture of Nakhchivan were identified, reflecting the connection with the Ağrı Valley, the Urmia basin, and the monuments of Eastern Anatolia. The research's final outcome indicates that Nakhchivan was a cultural hub in the region during the early Iron Age and played a significant role in the South Caucasus's interactions with the Middle East.

**Keywords:** *Azerbaijani archeology, Nakhchivan, Iron Age, I Khalaj, Yurdchu necropolis, Urmia basin, Ağrı Valley.*

**Зейнаб Гулиева**

## СВЯЗИ КУЛЬТУРЫ ЖЕЛЕЗНОГО ВЕКА НАХЧЫВАНА С СОСЕДНИМИ РЕГИОНАМИ (на основе новых находок)

Одной из актуальных проблем кавказской археологии является изучение межрегиональных связей в Железном веке. В географическом отношении Азербайджан, в том числе его Нахчыванский край, образующий южные ворота этого региона, играл важную роль в связях Южного Кавказа с Ближним Востоком. В представленной статье эти связи исследуются на основе новых археологических материалов, обнаруженных в памятниках железного века Нахчывана. Целью исследования является определение основных направлений связей культуры железного века Нахчывана с соседними регионами, а также введение в научный оборот новых археологических материалов. Для этого к исследованию были привлечены артефакты, обнаруженные в основном в 2024 году в поселении Халадж I, а также часть керамических изделий поселения Халадж II, некрополя Юрдчу и некрополя Демирчи I. Исследования проводились на основе типологических сравнений, результатов анализа C14, аналитических разборов и графических описаний новых находок. На основе проведенных исследований были выявлены 3 направления в культуре Железного века Нахчывана, отражающие связь с долиной Агры, бассейном Урмии и памятниками Восточной Анатолии. Окончательный результат исследований показывает, что на раннем этапе Железного века Нахчыван был одним из культурных центров региона и имел большое значение в отношениях Южного Кавказа с Ближним Востоком.

**Ключевые слова:** *азербайджанская археология, Нахчыван, Железный век, Халадж I, некрополь Юрдчу, бассейн Урмии, долина Агры.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 10.06.2025**
**Son variant 30.06.2025**